**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

# SİLLABUS

## Sığorta işinin təşkili

***( 6 kredit (AKTS))***

***Müəllim haqqında məlumat***


***Müəllim (mühazirə) prof.M.C.Hüseynov***
**Kafedra**: Maliyyə və iqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 118
**İş nömrəsi: 268 94 53**
**Mob**: 050 330 15 10
**İş saatları: 9 00 – 17 00**
**E-mail: h-tural@rambler.ru** (mühazirə)

***Müəllim(seminar):b/m A.R.Məmmədova***
**Kafedra**: Maliyyə və iqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 114
**İş nömrəsi: 268 94 53**
**Mob**: 055 906 06 99
**İş saatları: 9 00 – 17 00**
**E-mail:** m.arzu74@bk.ru (seminar)


**GƏNCƏ-2021**

Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda  bu barədə məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxunmalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim olunan fənlə əlaqəli informasiyalarla tanış ola bilərlər.

### *Kurs cədvəli*

Dərslər aşağıdakı zamanlarda ənənəvi qaydada əyani olaraq auditoriyalarda keçirilir:

Çərşənbə axşamı – alt həftə (mühazirə)- 17:00-18:20
Çərşənbə-hər həftə (seminar)- 17:00-18:20

### *Fənnin təsviri*

Müasir şəraitdə sığorta işi  zəruri xidmət sahələrindən olmaqla istehsalın fasiləsizliyində, insanların həyatlarında və ümumən milli iqtisadiyyatımızın inkişafında mühüm rola malikdir. Ölkəmizdə və dünyada sığorta xidmətlərinə olan tələbat sığortaçıların  və  sığortalıların  iqtisadi maraqlarına uyğun  formalaşır. Sığortanın təbii fəlakət və bədbəxt hadisələr nəticəsində dəyən zərərlərin vaxtında kompensasiya edilməsi, sığorta ehtiyatlarının pul vəsaiti formasına toplanaraq investisiyaya yönəldilməsi və bank kreditinin mənbəyi kimi çıxış etməsi  sığorta işinin səmərəli təşkilini daha da aktuallaşdırır.

Sığorta işinin təşkili fənninin başlanğıc hissəsində sığorta münasibətlərinin hüquqi əsasları sığortaçının nizamnamə kapitalının həcminə və mənbələrinə qoyulmuş tələblər , risklərin mahiyyəti və təsnifləşdirilməsinin öyrənilməsi nəzərdə tutulmuşdur.

Fənnin sonraki mərhələsinə daxil edilən Sığorta və təkrarsığorta fəaliyyətinin lisenziyalaşdırılması, sığorta şirkətlərinin fəaliyyətinə nəzarət, sığortaçının fəaliyyətinin maliyyə əsasları, sığortaçının ehtiyatları, sığorta bazarı, sığortada marketinq fəaliyyəti, sığorta şirkətlərinin tədiyyə qabiliyyətliliyi və maliyyə sabitliyinin də tələbələr tərəfindən öyrənilməsi tələb olunur.

***Planlaşdırlan təlim nəticələri***

**Fənn tədrisinin sonunda tələbələr aşağıdakıları mənimsəməlidir:**

- sığorta münasibətlərinin təşkili qaydalarını;
- sığorta obyektini;
- şəxsi sığortanın obyekti ;
- əmlak sığortasının obyekti ;
- sığorta müqavilələrinin subyektləri ;
- risklərin təsnifləşdirilməsinin prinsipləri ;
- sığorta fəaliyyəti növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumlarının məbləğləri ;
- sığortaçının sığorta və ya təkrarsığorta fəaliyyətinə lisenziya verməkdən sığorta nəzarəti orqanının imtina etməsi halları;
- sığortaçının rəhbər işçiləri və onlar qarşısında qoyulan tələblər;
- lisenziyalaşdırılan sığorta fəaliyyəti;
- lisenziyanın müddəti;
- sığorta fəaliyyətində dövlət tənzimlənməsinin məqsədi;
- sığorta fəaliyyətinə dövlət nəzarəti;
- sığorta fəaliyyətinin mahiyyəti;
- sığorta fondu və onun formalaşdırılmasının əsasları;
- sığortaçının məcmu kapitalı;
- sığortaçının nizamnamə kapitalı;
- sığortaçının tələb olunan kapitalı;
- sığortaçının formalaşdırdığı sığorta ehtiyatları ;
- sığorta bazarı və rəqabət;
- sığortanın təşkilati formaları;
- sığorta xidməti marketinqinin əsas elementləri ;
- sığorta şirkətinin marketinq və menecment fəaliyyətinin əlaqəsi ;
- sığorta üzrə təminat fondu, onun məqsədi və funksiyaları ;
- sığortaçıların maliyyə sabitliyinin itirilməsinin əsas mərhələləri ;
- sığortaçının tədiyyə qabiliyyətinin qiymətləndirilməsi və ona təsir edən amillər;
- investisiyanın sığortaçıların maliyyə sabitliyinə təsiri ;
- sığorta şirkətinin strateji alternativləri ;
- sığorta işində pul axınlarının maliyyə planlaşdırlması xüsusiyyətləri

*Fənn üçün 45 saat (6 kredit) verilir. Fənn 15 həftəlik bir semestr ərzində tədris olunmaq üçün hazırlanmışdır. Bir həftədən bir 2 saat mühazirə, hər həftə isə 2 saat( 2 saat alt həftə olmaqla mühazirə, 2 saat hər həftə olmaqla seminar) seminar var.*

*Fənnin tematik təqvimi*

| s/s | Mövzuların adları | Cəmi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | Müh. | Sem. |
| 1 | **Sığorta münasibətlərinin hüquqi əsasları** | | 1 | 2 |
| 2 | **Risklərin mahiyyəti və təsnifləşdirilməsi** | | 2 | 4 |
| 3 | **Sığorta və təkrarsığorta fəaliyyətinin lisenziyalaşdırılması** | | 1 | 2 |
| 4 | **Sığorta şirkətlərinin fəaliyyətinə nəzarət** | | 1 | 2 |
| 5 | **Sığortaçının fəaliyyətinin maliyyə əsasları** | | 2 | 4 |
| 6 | **Sığortaçının ehtiyatları** | | 1 | 2 |
| 7 | **Sığorta bazarı** | | 1 | 2 |
| 8 | **Sığortada marketinq fəaliyyəti** | | 2 | 4 |
| 9 | **Sığorta şirkətlərinin tədiyyə qabiliyyətliliyi və maliyyə sabitliyi** | | 2 | 4 |
| 10 | **Sığorta sistemində planlaşdırma və proqnozlaşdırma** | | 2 | 4 |
| | Cəmi: | | **15** | **30** |

*Mühazirənin quruluşu*

Mühazirə müddəti 80 dəqiqə əyani olaraq planlaşdırılır. Mühazirə zamanı mövzu ilə bağlı qeydlər etmək tələbələrin məsuliyyətidir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından əldə edilə bilər.
Mühazirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Eyni zamanda, çətin mövzular hərtərəfli müzakirə ediləcək, aydınlaşdırılacaq və izah ediləcək. Mühazirə zamanı tələbələr mühazirəçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və ya aydınlaşdırmasını tələb edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin internet resurslarından istifadə etmələri məsləhətdir.

Mövzuya ayrılan saatların 25 % -dən çoxunda iştirak etməyən tələbələr imtahana buraxılmırlar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı).

**_Seminar_**

Seminar mövzuları və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Hər seminar üçün iki saat vaxt verilir. Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir. Cavablar əzbərlənərsə və səthi olarsa, tələbənin fənni mənimsəmədiyi hesab olunur.

Hər tələbədən mövzu ilə əlaqəli bir təqdimat hazırlamaq tələb olunur. 10-15 dəqiqəlik təqdimatlar əvvəlcədən hazırlanmalıdır. 10-15 slayddan ibarət ola bilər. Təqdimatın sonunda nəticələri ümumiləşdirmək lazımdır. Təqdimatdan sonra mövzu bütün auditoriya tərəfindən müzakirə olunur. Tələbələrə əhatə olunan mövzu ilə bağlı test sualları da təqdim olunur. Tələbələr hər dərsdə sual-cavabda aktiv iştirak etməli, mövzunu sərbəst, aydın, ardıcıl danışmağı bacarmalıdır.

***Tələbələr üçün tövsiyyələr:****Tələbələr auditoriyada fəal iştirak* etməkdən*, sual verməkdən, fikirlərini bildirməkdən və səhv etməkdən çəkinməməlidirlər.*

**_Sərbəst işlər_**

Fərdi tapşırıqlar müəllim tərəfindən təyin olunmuş vaxtda təqdim edilməlidir. Fərdi tapşırıqlar iki səhifədən az olmamalıdır. Fərdi tapşırıqlar tələbənin fəsli tam başa düşdüyü zaman qəbul edilir. Əks təqdirdə, tapşırıq qəbul edilmir və ümumi baldan çıxılır. Fərdi tapşırıqların gec təqdim edilməsi qəbul edilmir və qiymətləndirilmir. Bununla birlikdə, növbəti ayın balları hesablanarkən, yuxarıdakı şərtlər daxilində fərdi tapşırıqlar yenidən təqdim edilə bilər.
Bundan əlavə olaraq, ədəbiyyat icmalı, qrup və ya fərdi şəkildə təqdimatlar, sorğu və müəllimin müəyyənləşdirdiyi digər formada aparıla bilər.

**_İmtahan_**

İmtahan beş sualdan ibarət olacaqdır. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə razılaşmırsınızsa, bu məqsədlə Universitet tərəfindən yaradılan Apelyasiya Komissiyasına şikayət edə bilərsiniz. Apelyasiya Komissiyası şikayətinizi əsaslı hesab edərsə, sizə yenidən imtahan vermək imkanı verilə bilər.

**_Qiymətləndirmə_**

Kurs qiymətləri aşağıdakı cədvəldə qeyd edildiyi kimi dərsə davamiyyət, fərdi tapşırıqlar, seminar balları və buraxılış imtahanı balları ilə müəyyən ediləcək:

| Fəaliyyət növü | Maksimum qiymətləndirmə | Yekun qiymətləndirmənin %-i |
|---|---|---|
| Dərsə davamiyyət | 10 bal | 10% |
| Fərdi tapşırıqlar (10 mövzu) | Hər sərbəst işə 1 bal | 10% |
| Seminar nəticələri | 30 bal | 30% |
| İmtahan nəticəsi | 50 bal | 50% |
| Yekun kurs balı | 100 bal | 100% |

## *Tövsiyə olunan ədəbiyyat*


1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, 2010.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi (11 iyul,2000-ci il), Bakı, 2017.
3. Sığorta fəaliyyəti haqqında AR-nın Qanunu. 25 dekabr 2007-ci il
4. İcbari sığortalar haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı 2011
5. *B.Xankişiyev Sığorta fəaliyyətinin əsasları. Bakı, 2006.*
6. E.R.Quliyev, M.C.Hüseynov, A.R.Məmmədova. Sığorta işi üzrə praktikum.Bakı,2015
7. İ.Abbasov, İ.Həsənov Sığorta işinin təşkili. Bakı, 2013.
8. N.N.Xudiyev. Sığorta işi: müasir kurs..Bakı,2015
9. Страхование. учебник, 4-е издание. Под ред. проф. Ю.Т.Ахвледиани и проф В.В.Шахова. М., 2011
10. С.В.Ермасов, Н.Б.Ермасова. Страхование, Москва, 2011.